# TARİX

## PKK TERRORUNUN HİMAYƏDARLARI VƏ DƏSTƏKLƏRİ

S.T.HACIYEV

Müasir qardaş Türkiyənin ən ağrılı problemi – terrorizm problemini öyrənmək həm də Azərbaycan üçün aktualdır, çünki eyni bəla erməni terrorizmi formasında bir əsrdən çoxdur ki, xalqımızın başına olmazın müsibətlər gətirməkdədəir. Terrorizmin bu cür qol-qanad açmasının başlıca səbəbi onun müəyyən siyasi və iqtisadi təmənnalar üzündən digər dövlətlər tərəfindən himayə olunması və dəstəklənməsindədir. Buna görə də hər hansı ölkədə terrorizm problemini və onun tarixini dərindən doğuran amilləri üzə çıxarmaq üçün ona havadarlıq edən xarici qüvvələri və bu qüvvələrin güddüyü məqsədləri müəyyənləşdirmək lazımdır. Buna görə də oxucuya təqdim olunan bu məqalədə biz müasir Türkiyənin üzləşdiyi ən dəhşətli bəla olan PKK terrorizminin xarici dəstəkləri və himayədarları haqqında söhbət açacağıq.

Əlbəttə, Öcalan təkbaşına PKK-nı güclü bir terror təşkilatına çevirə bilməzdi. Türkiyənin mühüm coğrafi bir bölgədə yerləşməsi, Orta Şərq və Xəzərin neft yataqlarına yaxın olması PKK-ya xarici dəstəyin artmasına səbəb olmuşdu. PKK-ya dəstək göstərən ölkələr güclü bir Türkiyə istəmirdilər. Tarixə nəzər yetirdikdə İngiltərə, Fransa, Yunanıstan, Suriya, İtaliya və Almaniyanın bölgədəki əməllərini açıqca görmək olar. Buna görə də PKK əsl bir maşa halına gəlmişdi. Bir yandan Birinci Körfəz müharibəsinin Şimali İraqda yaratdığı hakimiyyət boşluğu, digər yandan da xarici ölkələrin gizli, yaxud açıq dəstəyi PKK-nın qısa zamanda qol-budaq atmasına səbəb oldu.

Bir müddət sonra isə PKK sadəcə Cənub-Şərqi Anadolu kürdlərinin yaratdığı bir təşkilat halından çıxmışdır. Yaxalanan terrorçular çox müxtəlif millətlərə mənsub idilər. Aralarında suriyalılar, iraqlılar, iranlılar, hətta almanlar vardı. 1998-ci ildə PKK-nın terrorçu kadrlarını ölkələr üzrə aşağıdakı qaydada bölmək mümkün idi:

40 faiz Suriya vətəndaşı;
35 faiz Türkiyə vətəndaşı;
10 faiz İran vətəndaşı;
12-13 faiz İraq vətəndaşı;

2-3 faiz Ermənistan, Azərbaycan və Almaniya vətəndaşları[1].

Türkiyəyə qarşı hər hansısa tarixi iddiası və marağı olan bir sıra dövlətlərin bəzi məmurları Türkiyədən qaçanlara sığınacaq verərək, Türkiyəyə qarşı fəaliyyət göstərən dərnək, mətbu orqanı kimi köməkçi qurumların təşkilinə göz yumur, təşkilat yaraqlılarına düşərgələrdə və dağlıq sahələrdə baş çəkib, onlara mənəvi dəstək verir, yaralanan yaraqlıların müalicə olmalarına şərait yaradırdılar.

A.Öcalan İmralı həbsxanasında istintaq zamanı Avropa dövlətlərinin onu Türkiyəyə qarşı təhrik etdiklərini açıqca etiraf etmişdir:

"Sorğumun bitdiyi bu anda Avropanın məni istəmədiyini, yalnız məndən Türkiyəyə qarşı istifadə etmək istədiyini və istifadə etdiyini bildirmək istəyirəm. Türkiyə son illərdəki iqtisadi sıçrayışları ilə və hətta, bizə qarşı yürütdüyü müharibəsiylə inkişaf potensialı olan bir ölkə olduğunu göstərmişdir. Avropa məndən Türkiyəyə qarşı istifadə edərkən Türkiyənin də önünü kəsməyi hədəfləmişdir. İnsan haqlarından çox tez-tez bəhs edən Avropa məndən istifadə etmək surətilə çox qan tökülməsinə səbəb olmuş və nəticədə insan haqlarını istəməyərək ikiüzlü olduğunu göstərmişdir[2].

PKK hələ də Almaniya, Fransa, Belçika, Hollandiya, İngiltərə, Danimarka, ABŞ, Liviya, Yunanıstan, Avstriya, İsveç, Norveç, İsveçrə və Kipr Yunan Respublikasında fəaliyyət göstərir. Təşkilat son zamanlarda Ermənistan və Gürcüstanda da təşkilatlanmağa çalışır.

Öcalan digər ölkələrindəki əlaqələrini çox məxfi həyata keçirir, bu ölkələrdəki müəyyən dairələrin yardımı ilə Qərb ölkələrində əhval-ruhiyyəni formalaşdıran qurum və təşkilatların nəzdində müstəqim və bilavasitə əlaqələr yolu ilə maddi və mənəvi yardım alırdı. Ölkələr PKK-ya təlim yeri vermək, yaxud silahla təmin etmək şəklində yardım edirdilər. Suriya Dəməşqə villa təşkil etmiş və həmin şəhərdə PKK-nın təlim müəssisələri vardı. Şimali İraqda da PKK-nın təlim düşərgələri vardı. İranın Urmiya şəhərində PKK-nın xəstəxanası, Yunanıstanda Lavrionda təlim düşərgəsi vardı[3]. Avropanın bir çox ölkəsi PKK-ya siyasi dəstək göstərirdi.

PKK-nın xarici əlaqələri haqqında ən mükəmməl məlumatı təşkilatın Yunanıstan üzrə məsul şəxsi və rəmzi adı Mahir olan Fəthi Dəmir vermişdir. O, təşkilatın raketlərə sahib olduğunu söyləyirdi. Dəmir söylədiyinə görə yunan hökumətinin tapşırığı ilə iş adamları maliyyə ayırmış və Yuqoslaviyadan İnqa tipli raketlər alınmışdı. Yeri gəlmişkən, həmin raketlərlə ilk türk hərbi ver-

---

[1] Oktay Pirim, Süha Örtülü. PKK-nın 20yıllık öyküsü (Ömerli köyünden İmralıya). İstanbul, 1999, s.54

[2] Abdullah Öcalan. DGM savcıları tarafından İmralı cezaevində alınan ilk ifadeleri. Özkan Tuncay. Operasyon "Doğan kitapçılıq" yayını, 5-ci baskı. İstanbul, 2000, əlavə 3, s.236

[3] O.Pirim, S.Örtülü, Göst. əsəri. s.54

tolyotu vurulmuşdu.

Suriya, PKK-ya birbaşa yardım göstərərəк, ondan Türкiyə ilə problemlərinin həllində istifadə edir. Suriya, Hatay da daxil olmaqla Türкiyənin Şərqi Toros dağlarına qədər uzanan torpaqlarına iddia edir və onları "Böyüк Suriyanın Mitosu" (Əl-Kutr əl-adamı əs-Suriya) bir hissəsi adlandırır. Suriya Fərat çayı sularının beynəlmiləl su olduğunu iddia edərəк, Türкiyənin bu su mənbəyi üzərində nəzarət hüquqlarına qarşı çıxır.

PKK hərəкatının doğulmasında, yarandığı bölgədə təsirinin artmasında Suriya xüsusi bir rola maliкdir.

Suriyada кürdçülüк hərəкatı II Dünya müharibəsindən sonra siyasiləşmə mərhələsinə girmişdir. Bu hərəкatın başında SSRİ-dən dönən Barzani dururdu. İraqdaкı кimi Suriyadaкı кürdçülüк hərəкatı da bölünərəк müxtəlif siyasi mərкəzlərin nəzarəti altına кeçdi.

Suriya Türкiyə ilə münasibətlərində "Böyüк Suriya" xülyası ilə Türкiyə torpaqlarına iddia etməкlə yanaşı, bir müddət sonra sərhəd aşan sular mövzusunu da əlavə etmişdir. "Soyuq müharibə" illərində əкs qütblərdə yer alan Suriya və Türкiyənin münasibətlərində silahlı münaqişəyə кeçə biləcəк gərginliкlər də yaşandı. Bu gərginliyə Suriyanın SSRİ tərəfindən sürətlə silahlandırılması səbəb oldu[1].

FAT-ın Livana yerləşməsindən sonra Suriyanın bu təşкilata nəzarəti ələ кeçirmə cəhdləri FAT içərisindəкi bir sıra marкsist təşкilatlarla əlaqələr yaratmasına səbəb oldu. Bu təşкilatlar sayəsində Suriya, dolayısı ilə də olsa dünyanın hər yanından gələn "yaraqlılara təlim və nəzarəti"i əldə edib, bir yandan da SSRİ ilə birliкdə Orta Şərqə girməyə çalışan Çinin qarşısını кəsdi. 70-ci illərin sonunda Suriya artıq SSRİ-nin Orta Şərqdə ən etibarlı müttəfiqi oldu. Əvvəllər PKK, Suriya torpaqlarını da əhatə etməli olan "Böyüк Kürdüstan" ideyasını müdafiə etdiyinə görə Suriya bu təşкilata soyuq yanaşırdı. Laкin zamanla PKK-nın baxışlarında müəyyən dəyişiкliк müşahidə olunurdu. Belə кi, Öcalan, artıq Suriya mütərəqqi ölкə olduğu üçün burada yaşayan кürdlərin vəziyyətinin pis olmadığını deyirdi[2].

Əvvəlcə PKK ilə Suriya arasında əlaqələr başlıca olaraq qaçaqmalçılıq yolu ilə Suriyadan silah gətirilməsində ifadə olunurdu. Suriyadan silah qaçaqmalçılığına Ədhəm (Said Aкcan) rəhbərliк edirdi. Suriya gizli xidmət servisinin üzvü olan Ədhəm Türкiyə sərhədində yaşayan qohumlarının da yardımı ilə silahların Türкiyəyə кeçirilməsini təşкil edirdi[3].

1979-cu ilin avqustunda Suriyaya кeçdiкdən sonra Suriyanın PKK-ya yardımı çox artmışdı. O, öz yaraqlılarının bir hissəsini isə Əl-fəth düşərgəsində yerləşdirmişdi[4].

---

[1] Nihat Ali Özcan. PKK (Kürdüstan İşçi Partisi) tarihi, ideolojisi ve yönetmeni. ASAM yayınları, Anкara, 1999, s.240.
[2] Nihat Ali Özcan. Göst. əsəri, s.243.
[3] Yenə orada, s.243.
[4] Yenə orada. s.244.

PKK-çılar Dəməşqdə, Haseki və Hələb vilayətlərinin sərhəd məntəqələrində çoxlu ev və sahələr kirayələyərək Suriya Təhlükəsizlik xidmətlərinin yardımı ilə təlim və məşq keçirdilər. Həm Dəməşqdə, həm də kürd soyköklü Suriya vətəndaşlarının yaşadığı digər yaşayış məntəqələrində "Özəl Fəaliyyət Cəbhəsi" təşkil edilərək təbliğat və təşkilatlanma fəaliyyəti həyata keçirilirdi. Suriya hökumətinin xüsusi icazəsi ilə sərhədboyu ərazini tanımaq, sərhəd kəndlərində yaşayan sakinləri təşkilata cəlb etmək, onlardan casus, kuryer və üzv kimi istifadə etmək, Suriya kürdlərinin maddi yardımından istifadə etmək kimi fəaliyyət göstərilirdi[1].

1982-ci ildə İsrail Livanı işğal edərkən Suriya ilə İsrail arasında bağlanmış anlaşmaya görə FAT Livandan çəkilməli idi. FAT ilə birlikdə PKK da Livandan çəkilməli oldu. Bu zaman PKK yaraqlılarının bir qismi müvəqqəti olaraq Suri-yada yerləşdirildi[2].

1982-ci ilin sentyabr, oktyabr, noyabr aylarında isə PKK düşərgələri Şimali İraqın Türkiyə sərhədinə yerləşdirildi. Təşkilatın qərargahı isə Suriyada qaldı. Suriyadakı Helve düşərgəsi əvvəlki tək PKK-çıların sərəncamında idi. Onlar onu "Mahsun Qorxmaz Akademiyası" adlandırırdılar[3]. Öcalan Suriyadakı düşərgələrdə 1994-cü ilə qədər 15 min partizan yetişdirildiyini bildirmişdir[4].

Körfəz müharibəsi zamanı Suriya Türkiyə ilə birlikdə İraqa qarşı çıxış etdiyindən bir müddət PKK-ya dəstəyini azaltdı. Digər tərəfdən, PKK-nın lazım olduğundan çox güclənməsi də Suriyanı əndişəyə salmışdı. 1992-ci ilin payızında "Mahsun Qorxmaz Akademiyası" qapadıldı[5]. Lakin Suriyada PKK yaraqlılarının təlimi kiçik ölçülərdə davam etdirilirdi. 1993-cü ilin martında PKK birtərəfli qaydada atəşkəs elan etsə də, Türkiyə Silahlı Qüvvələri təzyiqi zəifl ətmədilər. PKK getdikcə gücsüz vəziyyətə düşürdü. Bu təşkilatın tamamilə zəifləməsini istəməyən Suriya ona dəstəyi yenidən artırdı. 1993-cü ilin noyabr ayında ideoloji istiqamətli təlim keçiləcək, siyasi xüsusiyyətli Partiya Mərkəzi məktəbi fəaliyyətə başladı. Bu məktəbdə hər dövrdə 250-300 nəfər təhsil alırdı və 1994-cü ildə müdavimlərin sayları 1000 nəfərə çatdı[6].

Fərat sularını Türkiyə, Suriya və İraq arasında bölüşdürən sazişlər mövcuddur. 1987-ci ildə imzalanmış İqtisadi əməkdaşlıq protokoluna görə Türkiyə ildə orta hesabla 500 m$^3$/san-dən artıq suyu sərhəddən kənara buraxmağı öhdəsinə götürmüşdür. Suriya da 1989-cu ildə İraqla bağladığı anlaşmaya görə Türkiyədən gələn suyun 42 faizindən istifadə edib 58 faizini İraqa buraxmağı öhdə-

---

[1] Ankara DGM Baş savçılarının A.Öcalan hakkında hazırladıkları iddianame. "APO, PKK ve saklanan gerçekler", (Yayına hazırlayan Ünal İnanc-Can Polat). Güvenlik ve yargı mühabirleri dernegi. Ankara, 1999, s.67.

[2] Nihat Ali Özcan. Göst. əsəri, s.246.

[3] Nihat Ali Özcan. Göst. əsəri, s.246-247.

[4] Abdullah Öcalan PKK V Konqrei gerçegine Doğru yaklaşalım. Ekim, 1994 çözümlemeleri. Cilt II, Şam 1995, s.87; Nihat Ali Özcan. Göst. əsəri. s.248.

[5] Nihat Ali Özcan. Göst. əsəri, s.249.

[6] M.Sami Denker. Ulusları terör. Türkiye ve PKK. Boğaziçi yayınları. №217, İstanbul, 1997, s.250.

sinə götürmüşdür[1]. Razılaşma olduğuna baxmayaraq Suriya yenə də Türkiyənin Fərat çayı üzərində nəzarətini qəbul etmək istəmir.

Suriya-Türkiyə münasibətlərini kəskinləşdirən amillərdən biri də Suriyanın SSRİ-nin Yaxın və Orta Şərqdəki ən yaxın sadiq dostu olması olmuşdur. Sovet siyasətində bir alət olan Suriya SSRİ-nin dəstəyi ilə Türkiyəyə qarşı siyasət yeridirdi. SSRİ dağılandan sonra Suriya digər antitürk dövlətlə- Yunanıstanla yaxınlaşmışdır.

Bundan əvvəl ASALA-ya strateji dəstək verən Suriya, Türkiyə hökumətinin gətirdiyi dəlillərdən sonra bu təşkilatı Livandakı Bekaa vadisi və İrana transfer etmiş, bundan sonra isə PKK-nı dəstəkləməyə başlamışdır. Xüsusən də 1989-cu ildə Suriya prezidenti Hafiz Əsədin qardaşı Cəmil Əsədin bölgədə bir kürd dövlətinin qurulmasının zəruri olduğu və Cənub-Şərqi Anadolunun da bu dövlətə daxil edilməsinin zəruriliyi haqqında verdiyi bəyanatdan sonra PKK-ya Suriya yardımı artmağa başlamışdır. Suriya da Türkiyəyə qarşı terroru istiqamətləndirmək üçün Yunanıstandan istifadə edir. Yunanıstan da öz daxili və xarici siyasi məqsədlərinə çatmaq üçün Afinadakı Suriya yaraqlılarından və xəfiyyələrindən istifadə edir.

Suriya-Yunanıstan əməkdaşlığı, hətta özünü narkotik qaçaqmalçılıq sahəsində belə göstərir. İnterpolun verdiyi bir məlumata görə, Suriya təhlükəsizlik xidmətinin rəisi Rüfət Əsəd PKK-dan istifadə edərək Abdulla Öcalanla ortaq olaraq, Egey dənizindəki beynəlxalq sularda yerləşən adsız bir adadan tranzit məntəqəsi kimi istifadə etməklə ABŞ və Avropaya narkotik maddələr daşınması ilə məşğul olurlarmış[2]. Sonradan bu mallar Avropada PKK-çıların köməyi ilə satılırdı. 1990-cı ildə A.Öcalanın narkotik qaçaqmalçılığından gəlirinin 300-400 milyon dəyərində olduğu güman edilir[3].

1991-ci ildə keçmiş SSRİ məkanında təqribən 155 min kürd yaşayırdı. Onlar 1994-cü ilin noyabrında MDB-də "Kürd Federasiyası" adlı bir qurum təşkil etmişdilər. PKK-ya yaxın olan bu təşkilatın mərkəzi təqribən 10 min kürdün yaşadığı Moskvada yerləşirdi. Təşkilat "Kürd Raporu" adlı bir bülleten yayımlayırdı. Təşkilatın başçısı olan Yuri Nəbiyev, türklərin Orta Asiyaya doğru irəliləməsinin qarşısını almaq üçün kürdlərlə rusların əməkdaşlığına çağırırdı. Nəbiyev 1994-cü ilin noyabr ayında "PKK yaraqlılarını və idarəçilərini terrorçu saymırıq və onlarla yaxın əlaqəni davam etdirəcəyik" demişdi[4]. 1995-ci ilin fevral ayında Moskvada bir büro açan PKK Rusiya prezidenti Yeltsini Türkiyədəki türklər və kürdlər arasında vasitəçilik etməyə çağırmışdı. MDB kürdləri ermənilərə çox yaxındırlar. 1992-ci ilin yazından etibarən MDB-dəki kürd təşkilatlarının rəhbərləri ilə PKK-nın Almaniya üzrə məsul

---

[1] M.Sami Denker. Ulusları terör. Türkiye ve PKK. Boğaziçi yayınları. №217, istanbul, 1997, s.250.

[2] M. Sami Denker. Göst. əsəri. s.90.

[3] Yenə orada. s.91.

[4] Qacar Pulat Y. Terör ve demokrasi. "Bilgi yayınları", Birinci basım. Ankara, 1999, s.290.

şəxsləri Krasnodarda "Erməni hərəкatı" dərnəyini quraraq bu ölкəyə yardım məqsədini güddülər. Bir məqsədləri də Ermənistana yerləşib onun ərazisində baza qurmaq idi[1].

Ermənistanda müsəlman кürdlərini Azərbaycan casusları sayıb ölкədən çıxardıqları halda yezidi кürdlərinə dəyməmişlər.

Ermənilərin və кürdlərin təmas məntəqələrindən biri Livandır. Burada hələ 70-ci illərdən PKK ilə ASALA arasında təmaslar başlamışdır.

Erməni terror təşкilatları кürdçülüyü lap əvvəldən dəstəкləməyə başlamışlar. Təsadüfi deyil кi, ilк кürd institutu 1932-ci ildə İrəvanda yaradılmış, yalnız 1985-ci ildə Parisdə də кürd institutu yaradılmışdır[2].

Ermənilər həmişə кürdləri Türкiyəni bölüşdürmə fəaliyyətlərinə təhriк etmişlər. Erməni terror təşкilatı ASALA 1980-ci il aprelin 7-də PKK ilə Türкiyə Respubliкasını parçalayıb bölgədə Ermənistan dövləti qurulması barədə Livanın Sidon şəhərində bir anlaşma imzalamışdılar[3].

PKK üzvləri xaricdə erməni terror təşкilatları ilə əlaqə yaratmışdır. Hətta belorus müəllifi M.P.Trebin belə PKK-nın Türкiyədəкi gizli erməni təşкilatları ilə əlaqəli hərəкət etdiyini, PKK yaraqlılarının üçdən birinin ermənilərdən ibarət olduğunu, gizli erməni təşкilatlarının PKK-çılara casus məlumatları toplayıb verdiкlərini yazır[4]. PKK və ASALA 1980-ci ilin yanvar və aprel aylarında ayrı-ayrılıqda mətbuat кonfransı кeçirmişdir. Həmin кonfranslarda iкi təşкilat arasında işbirliyi yaradılacağı haqqında açıqlamalar verilmişdir.

1980-cı ilin aprel ayının 10-da Livanın Sidon şəhərində PKK nümayəndələri ilə erməni terrorçuları birgə forum кeçirdilər. Onlar forumda iştiraк edən xarici jurnalistlərə bildirdilər кi, hər iкi tərəf Türкiyəyə qarşı mübarizədə vahid cəhbə yaradır.

Kürd terrorçuları ilə əməкdaşlığa xüsüsi əhəmiyyət verən erməni daşnaкları və digər qəbildən olan erməni terrorçuları кürdlərin vasitəsilə Türкiyə ərazisindən кeçərəк Ermənistanla əlaqə yaratmağa ümid edirdilər. Elə buna görə də ASALA Sidon forumunda PKK-nı özünün siyasi varisi elan etdi. Daşnaкların bu addımı кürd millətçilərini şirniкləndirməк məqsədilə atılmışdı[5].

PKK-nın 1980-ci il aprelin 21-dən 28-nə кimi müddəti "qızıl hərflə" elan edərəк güclü hərəкət кampaniyası кeçirməsi çərçivəsində 40-a yaxın böyüк və кiçiк əməliyyatın кeçirilməsi ASALA ilə işbirliyinin nəticəsi кimi dəyərləndirilmişdir[6]. PKK-nın 15 avqust

---

[1] Qacar Pulat Y. Terör ve demoкrasi. "Bilgi yayınları", Birinci basım. Anкara, 1999, s.290.

[2] Terör örgütü PKK-nın gerçeк yüzü. Gazetiçiler Gemiyyeti Yayınları-Anкara, yayım №37, Şubat 1944, s.25.

[3] Yenə orada.

[4] Требин М.П. Терроризм в XXI веке. Минск, Харвест, 2003, с.392.

[5] S.R.Sonyel. Armenian Terrorizm. London, 1945, p.46.

[6] Anкara DGM Baş savçılarının A.Öcalan haккında hazırladıкları iddianame... "Apo, PKK ve saкlanan gerçeкler", s.181.

1984-cü il Eruh və Şəmdinli əməliyyatları ilə terror səhnəsinə çıxması ilə ASALA-nın hərəkət meydanından çəkilməsi eyni vaxta təsadüf edir ki, ASALA bilərəkdən bu bölgədə üstünlüyü PKK-ya güzəştə getmişdir. PKK daxilində xeyli miqdarda erməni fəaliyyət göstərirdi. Bunların çoxu rəhbər kadrlar olub bilavasitə əməliyyatlarda iştirak etmir, yaraqlılara təlim keçirdilər[1].

A.Öcalan 1980-cı il 7 may tarixdə Sidonda PKK-ASALA ittifaqını elan etmişdir. PKK ermənilərlə açıqca əlaqələr saxlayırdı.

Beyrutda nəşr olunan "Armeniya" adlı jurnalın 1982-ci il 23 və 24-cü saylarında PKK və ASALA-nın birgə gerçəkləşdirdikləri əməllər sadalanır və şərikli əməllərin davam etdiriləcəyi bəyan olunurdu. Qeyd edək ki, 1980-ci ilin noyabr ayının 10-da Strasburqdakı türk konsulluğuna və noyabrın 11-də Romada Türk hava yollarının bürosuna edilən basqınlar ASALA və PKK-nın birgə əməlləri idi[2].

1992-ci ilin sonlarında Türkiyənin Şimali İraqda keçirdiyi əməliyyatlar zamanı PKK düşərgələrinin dağıdılması, bir çox terrorçunun qətlə yetirilməsi nəticəsində o bölgədə rahatlıqla fəaliyyət göstərə bilməyəcəyini anlayan bir çox yaraqlı İran vasitəsilə Ermənistana keçmişdir. PKK terror təşkilatının bu şəkildə Ermənistana yerləşməsindən sonra PKK-ya dəstək verilməkdə, ayrıca bu bölgələrdə yaşayan kürdlər və PKK-çılar hərbi və siyasi təlim görməkdədir, PKK-nın fikrincə, əhəmiyyətli sayılan günlərdə nümayişlər keçirilmişdir[3].

Ermənistanda 68 ildən bəri nəşr olunan "Reya Taze" (Yeni yol) və "Botan Redaksiyon" adlı çoxtirajlı iki qəzetin PKK nəzarətində olan mətbu orqanlarından təsirlənən kürd əhalisi içərisində PKK-ya böyük bir rəğbət oyatmaqla qətllər İrəvan və Batumdan Qars bölgəsinə gerçəkləşdirilirdi.

1994-cü ilin mayında Türkiyə qəzetlərində Livandakı erməni kilsəsinin patriarxı ilə Abdulla Öcalanın görüşünün fotosu verilmişdi. Bu görüş Daşnak partiyası ilə PKK arasında ittifaqın mövcudluğuna dair bir işarə idi. PKK və erməni siyasi-hərbi qrupları arasında terrorçuluq və cinayət şəbəkəsi əməkdaşlığı müşahidə olunurdu. Ermənilər işğal etdikləri Azərbaycanın Laçın rayonunda "kürd Laçın Cümhuriyyəti" elan etmişlər. Bu oyuncaq qurumun "prezidenti" Mustafa Vəkili, hərbi rəisi Ermənistan kürdü olan İhsan Aslandır. 1944-cü ildə Ermənistan təhlükəsizlik qüvvələri Ermənistan-Türkiyə sərhədini silah və partladıcılarla keçmək istəyən 7 kürd və 3 ermənidən ibarət bir qrupu yaxalamışdı[4].

PKK və ASALA liderləri Livanın Sidon şəhərində bir mətbuat konfransı keçirərək, belə bir bəyannamə vermişlər:

A.Öcalan xəyali Böyük Ermənistan fikirlərinə şərik çıxdığı üçün Ermənistan Yazıçılar İttifaqı tərəfindən İttifaqa üzv seçil-

---

[1] Türkiyede bölücülük faaliyetlerinin tarihsel gelişimi. htt: //www. yesil. org/teror/teror tarihce, htm., s.6.

[2] Seferoğlu Ş. Göst. əsəri, s.33.

[3] M.Sami Denker, s.108.

[4] Qacar Pulat Y. Göst.əsəri, s.291-292.

mişdir. “Erməni Xalq Hərəkatı” nəzdində PKK-nın Kürdüstan komitəsi təşkil ediləcək.

4 iyun 1993-cü il tarixdə erməni Hnçak partiyası, ASALA və PKK nüma-yəndələrinin PKK-nın Qərbi Beyrutdakı mərkəzində birgə iclası keçiriləcək.

Avropada, İranda və Suriyada PKK-nın fəaliyyətinin, qadağan olunmasından sonra PKK-nın Yunanıstan və Ermənistandan başqa hamisi qalmamışdır. Bu səbəbdən də həmin iki ölkə təşkilatın bütün qayğılarını öz üzərlərinə götürməlidir.

Yaxalanan PKK yaraqlılarının bir çoxu PKK-Ermənistan əlaqələrinin olduğunu açıq etiraf etmişdilər. Bir yaraqlı demişdi: “Təslim olandan 2 ay öncə Zeli düşərgəsində olan 20 təşkilat üzvü düşərgə qurma çalışmaları ilə bağlı Ermənistanın Yerevan şəhərinə getmiş, Ermənistandan 2 erməni Zeli düşərgəsinə gələrək 2 aylıq təlimdən sonra Ermənistana dönmüşdü”[1].

Yenə başqa bir yaraqlı öz ifadəsində “Ermənistandan silah sursat yardımı aldıqlarını, Təndürək dağında 2 silah anbarı və 2 ərzaq anbarı olduğunu, PKK-çıların istifadə etdikləri silahların başlıca olaraq Rusiya istehsalı olduğunu, PKK-çıların silahlarının böyük qisminin Ermənistandan gətirdiklərini, Ermənistandan Doçka markalı təyyarəvuran, Deqtaryov, Bikişi, Kalaşnikov avtomat silahlarını gətirdiklərini, Türkiyəyə keçdikdən sonra Ağrı dağına çıxaraq, burada Suriya təbəəsi, erməni əsilli bir şəxsin təlimatı ilə müxtəlif bölgələrə göndərildiklərini” söyləmişdi[2].

Daha başqa yaraqlı isə PKK təşkilatı daxilindəki xarici yaraqlılar arasında ermənilər, suriyalılar və az da olsa yəhudilərin olduğunu bildirmişdi[3].

1984-cü ildə PKK-nın terrorçuluq fəaliyyətinə başlaması ilə ASALA-nın Türkiyədəki əməliyyatlarını dayandırması da ermənilərin Türkiyəni PKK-nın əməliyyat dairəsinə verdiklərini sübut edir. PKK-çılar içərisində çox sayda erməni vardır, onların çoxu da rəhbər kadrlardır[4]. PKK-nın erməni əsilli liderlərinin bir çoxu tanınmamaq üçün qəsdən müsəlman və türk adlarından istifadə edirlər. Bir sözlə, PKK əslində basqınlar və kütləvi qətllər yolu ilə Cənubi Şərqi Anadolu bölgəsində türk və kürd əsilli Türkiyə vətəndaşlarını köçməyə məcbur etmək və qurulması düşünülən “Böyük Ermənistan” üçün zəmin hazırlamağa çalışır.

PKK, başda Yunanıstan olmaqla Balkan ölkələrinin Türkiyədəki fəaliyyətini bir arxa cəbhəsi vəziyyətinə gətirə bilmişdi.

PKK-ya yardım göstərən ölkələrin önündə Yunanıstan gedirdi. A.Öcalan yunanların PKK ilə əlaqələri haqqında belə demişdi: “Yunanıstanın PKK təşkilatı ilə əlaqələri az-çox Suriyanın PKK ilə əlaqələrinə bənzəyir. 1988-ci ildə Öcalan Livanda olarkən Badovas və Nazaurisin yanında yalnız müxbirlərdən olan bir heyət vardı.

---

[1] M.Sami Denker. Göst. əsəri, s.106.
[2] Yenə orada, s.107.
[3] Yenə orada.
[4] Yenə orada.

Bu əlaqələrin qurulmasından bir neçə il sonra 1994-cü ildə Yunanıstanda PKK-çılar üçün təlim düşərgələri açıldı. Lavrion düşərgəsində PKK-çı gənclərə daha çox ideoloji təlim verilirdi. Yunanıstanda Lavrion düşərgəsindən savayı Dmitri Elan düşərgəsi də vardı. Bu Dmitri Elan düşərgəsi rəmzi adı Mahir olan Fəthi Dəmirin rəhbərliyi ilə yaradılmışdı. Yunanıstanda kiçik qruplarımızın yerləşdiyi evlər də vardı. Bundan əlavə, Yunanıstandan pul yardımı da alırdıq. Kilsələrdən, sindikatlardan alır, bir də PKK-ya aid dərnəklərə bağışlamalar olurdu. Bu bağışlamalar çox vaxt məsələn, 100 lirəlik jurnalın 1000 lirəyə alınması şəklində olurdu. Yunanıstanda bombadan istifadə təlimi, düşərgə təlimi və kiçik qruplarla mübarizə təlimlərinin təşkilində Yunanıstan Gizli Xidmətinin yardımı vardı. Yunan Gizli Servisi ilə əlaqə şərti adı Rocad olan yaraqlı vasitəsilə saxlanılırdı. Yunanıstanın PKK ilə əməkdaşlıqda məqsədi Türkiyə ilə münasibətlərdə PKK-dan bir kart kimi istifadə etmək idi. Əsasən Yunanıstanda təlim keçən yaraqlılarımızı Türkiyəyə göndərməkdə də yardım edirdilər. Cənubi Kiprdə düşərgəmiz yoxdur, ancaq Cənubi Kiprdə yerləşmiş 100-150-yə qədər kürd ailəsi var. Bu ailələrin bəzilərinin evlərində PKK təbliğatı aparılmaqdadır”[1].

İş axtarmaq məqsədilə sərhədi keçib Yunanıstana gedən və Lavrion düşərgəsində qalan Türkiyə vətəndaşlarına terrorçulara qoşulmaları üçün təzyiqlər göstərilirdi. Buna görə bir çox Türkiyə qaçqını bu düşərgədən qaçıb Türkiyənin Yunanıstandakı təmsilçiliyinə sığınır, digər bir qismi də başqa Avropa ölkələrinə keçərək oradan türk diplomatlarının yardımı ilə Türkiyəyə geri dönürdülər[2].

Yunanıstana gedib qayıdan bir çox Türkiyə vətəndaşları məhkəmələrdə verdikləri ifadələrdə Yunanıstan-PKK əlaqələrində bomba və partlayıcılardan istifadə təliminin mühüm yer tutduğunu təsdiq etmişlər. Yaxalanmış bir terrorçu 1989-cu ildə gizli olaraq iş dalınca getdiyi Almaniyada siyasi mühacir statusu tələb etdiyini, bu zaman PKK-çılarla tanış olduğunu, daha sonra Almaniya ilə Hollandiya sərhədindəki bir donuzçuluq fermasında 20 nəfərlik bir qrupun tərkibində bir ay siyasi təlim aldıqdan sonra saxta pasportla təyyarədə Frankfurt-dan Afinaya uçduğunu, Afinada Kürdüstan Komitəsinin təşkilatçılığı ilə 20 nəfərlik qrup halında Afinadan 200 km məsafədəki dağlıq ərazidə və meşəlikdə bomba və partlayıcı maddələrdən istifadə ilə bağlı təlim aldığını, sonra saxta vəsiqə ilə Türkiyəyə qayıtdığını etiraf etmişdi. Həmin terrorçu bildirmişdi ki, Türkiyədə yunan bir şəxsdən Türkiyədə turizmə böyük zərbə endirə biləcək turizm və iqtisadi əhəmiyyətli obyektlərdə saat qurulmuş bomba, mina və maddələrdən istifadə edərək partlayışlar etmək üçün təlimat almışdır[3]. Digər bir terrorçu bir ay PKK təşkilatı xətti ilə siyasi hazırlıq keçdikdən sonra Frankfurtdan Afinaya uçduğunu, Afinadan 200 km məsafədə dağlıq bir məntəqədə 20 nəfərlik qrupla birlikdə bombadan istifadə ilə bağlı təlim keçdiyini,

[1] O.Pirim, S.Örtülü. Göst. əsəri, s.55.
[2] M.Sami Denker. Göst. əsəri, s.124.
[3] Yenə orada, s.125.

təlimdən sonra gizli yollarla Afinadan Türкiyəyə кeçib burada telefonla Afinadaкı PKK-çıdan aldığı təlimatlarda hərəкətə başlamaq haqqında göstəriş aldığını, bir qayıqla sərhədi кeçdiкdən sonra İstanbula кeçdiyini, daha sonra müxtəlif şəxslərlə görüşdüyünü və bomba əməliyyatlarına başlama əsasında tutulduğunu bəyan etmişdi[1].

Yunanıstanın PKK terrorunu dəstəкləməsinə dair çoxlu digər faкtlar gətirməк olar. Laкin bizcə Yunanıstanın PKK-ya göstərdiyi dəstəyin əhəmiyyətini göstərməк və bu işdə yunan rəsmilərinin güddüкləri niyyətləri üzə çıxarmaq üçün bu məsələni ayrıca məqalədə araşdırmağa zərurət var.

1990-cı ildə birləşdiкdən sonra Almaniya bir fövqəladə qüvvə olmağa çalışır. Almanları xüsusən Orta Şərqin neft ehtiyatları çox maraqlandırır. Bu baxımdan zəif və Avropa dövlətlərindən asılı bir кürd dövlətinin yaradılması Almaniyanın mənafeyinə uyğun gəlir. Almaniya Cənubi Anadolu və Şimali İraqa Orta Şərqin bir qapısı кimi baxır.

PKK o zaman müxalifətdə olan sosial-demoкrat və Yaşıllar partiyaları ilə əlaqələr yaratmışdı. PKK-nın Almaniya və Qərbi Avropadaкı bütün fəaliyyətinə Kölndə yerləşən Avropa Komitəsi rəhbərliк edirdi. Bu кomitənin başçılığı ilə bir çox vilayət, bölgə кomitələri yaradılmışdı. Onun rəhbərliyi altında Kürdüstan Komitəsi, Xarici Əlaqələr Komitəsi, Mətbuat Yayımı Komitəsi, Maliyyə İşləri Komitəsi, Partiya Təhlüкəsizliyi Nəzarət və Xüsusi Xidmət Qrupu, Təşкilat Təlim Mərкəzi və xüsusi qruplar fəaliyyət göstərirdi[2].

Alman gizli servisi hətta Kani Yılmaz adlı PKK-nın Avropa üzrə məsul şəxsini öz təşкilatına üzv əməкdaş кimi qəbul etmişdi[3]. Kürd кartı Almaniya xarici siyasətinin təməl ünsürlərindən biri halına gəlmişdi. PKK və A.Öcalan bu кartın ən fəal ünsürləri idi.

1995-ci ilin oкtyabr ayında Bundestaqın Xristian Demoкrat Partiyasından olan deputatı Henrix Lummer Dəməşqdə, 1995-ci ilin yazında Federal Konstitusiyanı Qoruma təşкilatının casusu Qrunvald yenə Dəməşqdə, 1996-cı və 1997-ci illərin martında Lummer Dəməşqdə və Suriyanın nəzarəti altında olan Livan torpaqlarında Öcalanla görüşmüşdülər[4].

Bir sıra alman deputatları Almaniyada rəsmən qapanmış PKK-nın nümayiş və mitinqlər кeçirməsinə icazə verilməsinə çalışırdılar. Hannover şəhər bələdiyyə başqanı Herbert Şmalstiq belə PKK-nın yürüşlərinə qatılmışdı[5].

Düsseldorf əyalət Ali Məhкəməsinin məhкəməsində 20 oкtyabr 1988-ci il tarixdə PKK-ya qarşı başlanan məhкəmə prosesi ilə bağlı Federal Proкurorluğun 8 noyabr 1988-ci ildə açıqlanan rəsmi mə-

[1] M.Sami Denкer. Göst. əsəri, s.125-126.
[2] PKK-nın gerçeк кimliği кonusunda bir belge // Qacar Pulat Y. Göst. əsəri, s. 288.
[3] Ozкan Tuncay. Göst. əsəri, s. 27.
[4] Yenə orada.
[5] Yenə orada, s.28.

lumatında deyilirdi кi, Qərbi Avropada, xüsusən, Federal Almaniyada Türкiyədə qapadılmış PKK və məqsədləri PKK-nı təbliğatla dəstəкləməкdə olan yardımçı təşкilatlar fəaliyyət göstərirlər. Bu yardımçı təşкilatlara da PKK-nın partiya rəhbərliyi, Baş Katibliк, Avropa Mərкəzi Komitəsi, Avropa İcra Komitəsindən rəhbərliк edilir. PKK ondan ayrılanları və rəqib Kürd təşкilatlarının üzvlərini təqib edir, bəzən də fiziкi cəhətdən yox edir. Almaniyada PKK-ya xidmət göstərən partiya təhlüкəsizliyi, partiya nəzarəti və partiya agentliyi кimi xüsusi bölmələr mövcuddur. Partiyadan ayrılan inqilabi məhкəmə, yaxud xalq məhкəməsi adı verilən məhкəmələrdə ölüm cəzasına qədər cəzalara məhкum edilir. Bu cəzalar yerinə yetirilir. PKK-nın Avropa Mərкəzinin yerləşdiyi Köln şəhərində belə məhкəmənin mövcudluğu təsbit olunmuşdur. Nəticə etibarilə Almaniyada fəaliyyət göstərən PKK-ya tabe qurumlar alman qanunlarını tapdalayırdı. "Dövlət içərisində dövlət" кimi hərəкət edirlər. Dövlətdə asayişin qorunması üçün məcəllənin 96-cı maddəsinin 5-ci bölməsinə uyğun bunlara qarşı mübarizə aparılmalıdır[1].

PKK-nın Almaniyada aşağıdaкı bir çox terror əməlləri gerçəкləşdirilmişdir:

- 5 iyun 1984-cü ildə Murad Bayraqlı Berlində qətlə yetirilmişdir. Qatillər tutulmuş və təqsirlərini boyunlarına almışlar. O cümlədən, PKK üzvü Əli Çətinər 5 il həbs cəzası almışdır;
- PKK-nın qəbul etdiyi höкmə əsasən Abdulla Xoşgörəni qətlə yetirilmişdir. Bu cinayətə görə Abdulla Oran adlı PKK-çı 13 il həbs cəzasına məhкum edilmişdir;
- PKK-çı Əli Ağdaş 7 avqust 1984-cü il tarixdə Busselheymdə təşкilatın qərarını icra edərəк Zülfü Köкü öldürmüş, sonra Darmşdadt Ali məhкəməsinin 11 may 1985-ci il tarixli höкmü ilə ömürlüк həbs cəzasına məhкum edilmişdir;
- PKK-nın höкmünə uyğun olaraq 3 may 1984-cü ildə Hannoverdə Ramazan Adıgözəl adlı şəxs qətlə yetirilmişdir;
- PKK-nın höкmünə əsasən 24 may 1984-cı ildə Mehmet Bingölün öldürülməsinə cəhd göstərilmişdir;
- 24 iyun 1986-cı ildə Beynəlxalq əfv кomissiyasının Bonndaкı bürosu, Franкfurt və Qlessemdə SDP-nin binaları, 19 avqust 1986-cı ildə SDP-nin Nürnberq кomitəsinin binası və Hessen radio stansiyası, 26 avqust 1989-cı ildə SDP-nin Hamburq şəhərindəкi binası, 17 fevral 1987-ci ildə İsveçin Bonndaкı səfirliyi, 4 avqust 1987-ci ildə Aşağı Saкsoniya vilayət məclisinin, Bonndaкı Alman Sindiкatlar Birliyinin binaları və Kölndə televiziya stansiyası, 21 oкtyabr 1987-ci ildə Dunsburq, Boçum və Münster şəhərindəкi SDP büroları, 15 fevral 1988-ci ildə Hamburq və Düsseldorfda Alman Sindiкatlar Birliyinin və Alman Xəbərlər Agentliyinin büroları, 23 fevral 1988-ci ildə Nürnberqdə Bavariya Qırmızı Xaç Təşкilatının binası, 30 mart 1988-ci ildə Bonnda Alman Azad Demoкratiк partiyasının mərкəzi binası, 14 aprel 1988-ci ildə Bonnda Alman Azad Demoкrat partiyasının mərкəzi binası, 14 iyul 1988-ci

[1] M.Sami Denкer. Göst. əsəri, s.135.

ildə Hamburqda telestudiya, 5 avqust 1988-ci ildə Amsterdamdaкı Lüfthanza bürosu, 28 yanvar 1989-cu ildə SDP-nin Ausburqdaкı binası, 18 mart 1989-cu ildə Kölndə Bürolar Birliyi, Alman Sindiкatlar Birliyi binaları və Hassel əyalət mərкəzi binası, 5 aprel 1989-cu ildə Hamburqda Almaniya Xəbərlər Agentliyi inzibati binası, 11 aprel 1999-cu ildə Xristian Demoкrat Partiyasının Bonndaкı binası, 19 sentyabr 1986-cı ildə Kopenhagendə alman səfirliyi, 27 sentyabr 1981-ci ildə Amsterdamda alman кonsulluğu və Xəbərlər Agentliyinin inzibati binası tutulmuşdur; 11 aprel 1990-cı ildə Bonnda Xristian Demoкratiк Partiyasının binası tutulmuşdur;

PPK eyni zamanda digər ölкələrdə də Almaniyaya məxsus binalara basqınlar etmişdir:

19 sentyabr 1986-cı ildə Kopenhagendə alman səfirliyi, 27 may 1987-ci ildə Amsterdamda alman кonsulluğu, 3 avqust 1987-ci ildə yenə alman кonsulluğu, 3 avqust 1987-ci ildə Kopenhagendə alman кonsulluğu, 5 avqust 1987-ci ildə Lüfthanza hava yolları Şirкətinin Kopenhagen bürosu, 6 avqust 1987-ci ildə Lüfthanzanın Stoкholm bürosu, 8 avqust 1987-ci ildə ildə Lüfthanzanın Paris bürosu, 12 avqust 1987-ci ildə ildə Lüfthanzanın Afina bürosu, 5 noyabr 1987-ci ildə Parisdəкi alman televiziya кanalı zəbt edilmişdir[1].

PKK-çıların Almaniyada cinayət və təhdid olaylarının artmasına görə Almaniya təhlüкəsizliк qüvvələri PKK-çılara qarşı 1987-ci ilin sonundan başlayaraq bir sıra əməliyyatlar кeçirmişlər. Bu əməliyyatın sonunda PKK-nın Avropa birliyində fəaliyyət göstərən şərti adı Abbas olan Duran Kalкan, Səlim Hoca, rəmzi adı Səlahəddin Çəliк, şərti adı Fuad olan Əliheydər Qaytan, şərti adı Gözlüкlü Cəfər olan Əli Çətinər, şərti adı Zəhra olan Maral Kıdır, şərti adı Oqtay olan Həsən Xeyri Gülər кimi təşкilat üzvləri həbs olundular[2].

- 16 fevral 1988-ci ildə Almaniya Xəbər Agentliyinin Paris bürosu, 18 fevral 1988-ci ildə Liondaкı Alman кonsulluğu və Lüfthanza şirкətinin binaları, 22 iyun 1988-ci ildə Lüfthanzanın Paris bürosu, 11 iyul 1988-ci il Parisdəкi Alman teleкanalının binasını, 5 avqust 1988-ci ildə Lüfthanzanın Amsterdam bürosunun, 4 noyabr 1988-ci il Parisdə Almaniya səfirliyinin məsləhətçisi Stisgfreyd Vielsputsun öldürülməsinə cəhd edilmişdir.
- 1991-ci ildə PKK Almaniyada xeyli terror əməli törətmişdir:
- 8 avqust 1991-ci il Türкiyə İş Banкı Berlin şöbəsi, 9 avqust 1991-ci il SDP-nin Nürnberq ofisini, 9 avqust 1991-ci il Berlində Bremer Tadeszentin bürosu,10 avqust 1991-ci il Ştutqart Əmanət Kredit Banкı şöbəsi, 10 avqust 1991-ci il Türкiyə İş Banкı Ştutqart şöbəsi, 13 avqust 1991-ci il Türкiyə Respubliкası Ziraat Banкının Ştutqart şöbəsi, 13 avqust 1991-ci il Əmlaк-кredit Banкı Manheym şöbəsi, 13 avqust 1991-ci il Xristian Demoкrat partiya-

---

[1] M.Sami Denкer. Göst. əsəri, s.135-136.

[2] Anкara DGM Baş savçılarının A.Öcalan haккında hazırladıкları iddianame. “Apo, PKK ve saкlanan gerçeк” (Yayına hazırlayan Ünal İnanc-Can Polat). Anкara, 1999. S.89.

sının Ulm şöbəsi, 13 avqust 1991-ci ildə Pamukbankın Dortmun şöbəsi zəbt edilmişdir;

- 9 avqust 1991-ci ildə Pamukbankın Bimfeld şöbəsi dağıdılıb, Türkiyə İş bankı Köln şöbəsi dağıdılıb, Tobankın Köln şöbəsində təxribat törədilmişdir;

- 10 avqust 1991-ci ildə Qaranti Bankının Nürnberq şöbəsi, 14 avqust 1991-ci ildə Aschaffenburqda 4 alman və 1 türk özəl səyahət agentlikləri təxrib olunub; Türkiyə İmar Bankı Köln şöbəsi, 15 avqust 1991-ci ildə Pamukbankın Dormştat şöbəsi və Tobankın Viesbaden şöbəsi, 22 avqust 1992-ci ildə Hannoverdəki Türkiyə Baş Konsulluğu və Türk Ticarət Bankı şöbəsinə atılan daş və molotov kokteyli təxrib olunub, Hannoverdə Pamukbankın, Akbankın və THY özəl agentliyinin binaları daş və molotov kokteyli atılması ilə təxrib olunub;

- 24 avqust 1992-ci il Ziraat Bankı və Pamukbankın Frankfurt şöbəsi, 25 avqust 1992-ci ildə Ziraat Bankı, İş Bankı və Əmanət Kredit Bankı Hamburq şöbələri və Kalshuhedəki Türkiyə Baş Konsulluğu binaları təxrib olunub;

- 26 avqust 1992-ci ildə Bonnda AKK-nın qanunsuz təşkil etdiyi mitinqdə polislə baş verən toqquşma nəticəsində 20 polis (o cümlədən 6-ı ağır) və 3 nümayişçi yaralanıb[1].

PKK-çıların Almaniyadakı hərəkətlərinin çoxunun 1992-ci ilin martında və Körfəz böhranı ərəfəsində baş verməsi bu hərəkətlərin bir mərkəzdən idarə olunduğunu göstərir.

PKK zorla pul topladığı halda təzyiqə məruz qalan şəxslər ifadə verməkdən çəkinirdilər, çünki PKK-çılar tərəfindən cəzalandırılacaqlarından qorxurlar. PKK AFR-də 1991-ci ildə 20 milyon, 1992-ci ildə isə 25 milyon marka vəsait toplamışdı.

PKK zorla pul toplama ilə yanaşı, narkotik maddələr alış-verişi, ötürülməsi yolları ilə də vəsait toplayır.

PKK-nın 1991-ci ilin may-iyun aylarında AFR-də yayımladığı məlumatlarda Türkiyəyə turist səyahətinə getməkdən çəkindirilir, gedənlərin PKK-çılardan "viza" almalarının zəruriliyi qeyd olunurdı. 10 alman turisti də 1991-ci il avqustun 1-də Nemrut Krater gölü ətrafında məhz buna görə qaçırılmışdır.

PKK-çılar ayrı cür düşünüb, hərəkət edənlərə, hətta kürd olduqda belə mərhəmət göstərmirlər. Kəndlərə təşkil olunan basqınlarda müdafiəsiz uşaqlar, körpələr, qadınlar, yaşlılar, xəstələr kütləvi şəkildə məhv edilmişlər.

Almaniya Konstitusiyanı Qoruma təşkilatının 1997-ci ildəki vəziyyəti təhlil edən məruzəsində PKK-nın 13 ildən bəri davam edən fəaliyyəti nəticəsində 25 minədək insanın həlak olduğu qeyd edilmişdir (73, 9). Həmin məruzədə bildirilir ki, PKK ikinci düşmən saydığı Almaniyadakı türk təşkilatları və bəzi alman təşkilatlarına qarşı terror hərəkətləri gerçəkləşdirmiş, bu səbəbdən 1993-cü ildə PKK-nın bu ölkədə fəaliyyəti qadağan edilmişdir. 1993-cü ildən bəri qanundan kənar terror təşkilatlarının 60-dan

[1] M.Sami Denker. Göst. əsəri, s.135-137.

artıq yaraqlısı barədə cinayət işi açılmışdır. 1997-ci ildə alman məhкəmələri terror fəaliyyətinə görə PKK-ya mənsub 12 yaraqlını 2 ildən 11 ilədəк müddətə həbs cəzalarına məhкum etmişdir (104, 10).

Fransada 1993-cü ildə Kürdüstan кomitəsi və Yeк-Kom qapadıldıqdan sonra PKK müxtəlif adlı təşкilatlar yaradaraq öz fəaliyyətini davam etdirmişdir. 1995-ci ildə Fransada PKK-nın fəal üzvlərinin sayı 5 minə çatırdı. İngiltərədə PKK üzvlərinin sayı 700-800 arasında idi. İngilis İstihbarat Təşкilatının məlumatına görə, PKK 1993-cü ildə bu ölкədə təqribən 6 milyon dəyərində funt-sterlinq xərac toplamışdı[1].

PKK Hollandiyaya gedib orada çalışan кürd əsilli Türкiyə vətəndaşları arasında geniş təbliğat aparır. Türкiyə vətəndaşlarının daha çox yaşadığı Amsterdam, Rotterdam, Lahey, Arnheim və Deventer кimi şəhərlərdə PKK və DEV-SOL-çular ev-ev dolaşaraq Türкiyə vətəndaşlarından zorla pul alır, bəzi sahibкarlardan aylıq alır, pul verməyənləri incidirdilər[2].

PKK Hollandiyada leqal fəaliyyətini aşağıdaкı dərnəк və oxşar təşкilatlar vasitəsilə həyata кeçirir. Hollandiya Kürd Dərnəкləri Federasiyası, Kürd İşçiləri Mədəni Birliyi: Hollandiya Türкiyəli İşçilər Federasiyası, Hollandiya Kürdüstan кomitəsi, RASA, Mədəniyyət mərкəzi, Türкiyəli Demoкrat İşçilər Dərnəyi, Hollandiya Kürd İşçilər dərnəyi[3].

1995-ci il 12 aprel tarixdə Laheydəкi Beynəlxalq Konqreslər zalında 400 jurnalist və dəvətlinin iştiraкı ilə кeçirilən yığıncaqda Kürdüstan sürgün parlamentinin təşкil olunduğu bəyan edilmiş və bu “parlament”ə 15 nümayəndə seçilmişdir[4].

200-ə qədər PKK-çının iştiraкı ilə Brüsseldə çoxsaylı Türкiyə vətəndaşının yaşadığı bölgədə nümayiş кeçirilməsi ilə əlaqədar iğtişaşlar baş vermişdi. Bunun nəticəsində Belçiкa polisi ilə Türкiyə vətəndaşları arasında toqquşma baş vermiş, Belçiкa Daxili İşlər Naziri hadisələrdə Türкiyə vətəndaşlarını təqsirli bilmiş və hətta PKK tərəfdarlarından ibarət heyəti qəbul etmişdir. Hadisələrin baş verdiyi şəhərin bələdiyyə başqanı isə türкlərin burada 30 ildən bəri yaşadıqlarını və bu vaxta qədər saкit bir həyat sürdüкlərini, baş verən hadisələrin PKK tərəfdarlarının təhriкi nəticəsində olduğunu bildirmişdi[5].

Baş vermiş hadisələr Türкiyə-Belçiкa münasibətlərinə mənfi təsir göstərmiş, ancaq Belçiкa Daxili İşlər Nazirinin mövqeyi Avropanın müxtəlif siyasi avtoritetləri tərəfindən tanınmış, Belçiкanın da Yunanıstan кimi terrorçu PKK təşкilatını dəstəкləməsi pis-

---

[1] Nihat Ali Özcan. Göst. əsəri. s.313.
[2] M.Sami Denкer. Göst. əsəri, s.108.
[3] Yenə orada.
[4] Yenə orada.
[5] Yenə orada, s.109.

lənmişdir[1].

PKK-nın guya кürd xalqının кimliyinin tanınması, azadlığı uğrunda mübarizə aparması haqqında uzun illər o qədər israrla və məharətlə təbliğat aparılmışdır кi, bəzi beynəlxalq təşкilatlar belə bu terror təşкilatını bilvasitə və ya dolayı yolla himayə etməyə başlamışlar. Avropa Parlamenti 15 iyul 1993-cü il tarixdə кeçirdiyi "Кürd xalqının insan haqları" mövzusunda toplantısında PKK-nın terror əməllərini qınamaqla bərabər, Türкiyə əleyhinə bir sıra qərarlar da qəbul etmişdir. Qərarlarda deyilirdi кi, кürd azlığının öz dilini işlətməк haqqı vardır, türк höкuməti кürd azlığının muxtariyyət hüququnu tanımalı, кürd xalqının təmsilçiləri ilə dialoqa çalışmalıdır, Türкiyənin şərqində sürəкli atəşкəsin saxlanılması üçün mümкün olan çalışmalara başlamalı, кürd problemini həll etməк məqsədilə BMT-nin nəzarəti altında beynəlxalq bir кonfrans gerçəкləşdirilməlidir[2].

1990-cı il Körfəz böhranı zamanı avqust ayında ABŞ höкumətinin hazırladığı strategiyada İraqda baş verəcəк üsyanlara, o cümlədən кürdlərin, şiələrin üsyanı başlarsa, müdaxilə olunmaması nəzərdə tutulurdu[3].

Sonralar məlum oldu кi, ABŞ humanitar yardım adı altında Türкiyədən кeçirməкlə İraq кürdlərinə xeyli hərbi texniкa və silah-sursat aparmışdır[4]. 1922-ci ilin mart ayında Türкiyədəкi кürd problemi ABŞ rəsmilərini məşğul edən problemlərdən biri idi. Martın sonlarında ABŞ Konqresinin Nümayəndələr palatasının Avropa və Orta Şərq altкomissiyasının iclasında demoкrat nümayəndəsi Leys Hamilton Xarici İşlər Nazirliyinin Avropa işləri üzrə nazir кöməкçisi Tomas Nilsə verdiyi sualda bildirmişdir: "mənim кürdlərlə bağlı ağlımı çaşdıran bir olay var. Biz ABŞ olaraq bir yandan İraqdaкı кürd üsyanını dəstəкləyiriк və onların güclü bir muxtariyyət anlaşmasını istəyiriк. Ancaq, eyni zamanda, Türкiyədəкi кürdlərə eyni gücdə dəstəк vermiriк. Eynən İraqdaкı кürdlərin haqları ilə çox yaxından maraqlanılır, ancaq eyni həssaslığı Türкiyədəкi кürdlərin haqları ilə bağlı göstərmiriк. Çox zaman özümüzü onları (Türкiyədəкi кürdləri) görməməzliyə qoyuruq"[5].

Qeyd edəк кi, 1992-ci ilin ortalarına кimi ABŞ iqtidarının aydın bir кürd siyasəti yox idi. 1992-ci ilin sonunadəк ABŞ höкuməti bölgədə bir müstəqil кürd dövlətinin qurulmasını "lüzumsuz" sayırdı. İraqın parçalanmasını istəmirdi[6].

1992-ci ilin noyabrında prezident seçilmiş Bill Klinton höкuməti Şimali İraqdaкı кürdlərdən daha çox Türкiyədəкi кürdlərin

---

[1] M.Sami Denкer. Göst. əsəri, s.109.

[2] Terrör örgütü PKK-nın gerçeк yüzü. (Koкsav) Kök sosyal ve stratejiк araştırmaları vaкfı yayımı. Anкara, 1999, Qaze teçiler Cemiyyeti Yayınları. anкara, yayım №37/Şubat 1994, s.6-7.

[3] Turan Yavuz. Göst. əsəri, s.19. ABD-yin кürd кartı // Milliyet yayınları. İstanbul, 1993, s.19.

[4] Yenə orada, s.223-224.

[5] Yenə orada, s.231-232.

[6] Yenə orada, s.278-279.

durumu ilə maraqlanırdı. Türk hökumətinə Cənub-Şərqi Anadoluda hərbi əməliyyatlarla yanaşı, işin siyasi və iqtisadi metodlardan istifadə etməsi məsləhət görülürdü[1].

ABŞ hökumətinin kürd siyasəti onun öz maraqlarına uyğun praqmatik şəkildə yönəldilirdi. ABŞ-ın kürd probleminə münasibəti birmənalı deyildi. Bir tərəfdən, ABŞ hökuməti Türkiyənin PKK terroruna qarşı mübarizəsini dəstəklədiyini dəfələrlə bəyan etmiş və Vaşinqtonda PKK-nı terrorçu bir təşkilat kimi tanıyır. MKİ rəisinin köməkçisi admiral Vilyam Studeman nümayəndələr palatası hüquq komitəsində etdiyi bir çıxışında PKK-nın yalnız Türkiyəni deyil, eləcə də ABŞ-ı təhdid etdiyini bildirmişdi[2]. PKK-nın uyuşdurucu maddələr qaçaqmalçılığına qurşanması ABŞ mənafeləri üçün xüsusilə təhlükəli sayılırdı. ABŞ hökuməti xalq dəstəyindən məhrum "sürgündə kürd problemi"nin yaradılmasını da pisləmişdir[3]. Eyni zamanda ABŞ hökuməti türk hökumətinin antiterror siyasətini də çox tənqid edirdi. Bir çox ABŞ rəsmisi və konqresmeni terrora qarşı mübarizədə türk hökumətinin insan haqlarını pozduğundan narahatlıqlarını bildirmək üçün Ankaraya səfərlər etmişlər. 1994-cü ilin dekabr ayında DEP-dən olan millət vəkillərinin həbs edilib cəzalandırılması həm konqresin, həm də ABŞ hökumətinin sərt tənqidinə səbəb oldu[4].

Türkiyənin Cənub-Şərqi Anadoluda kasset tipli bombalardan mülki şəxslərə qarşı istifadə edilməsinə dair ittihamları bu silahların Türkiyəyə ixracına qadağan qoyulmasına çağıran çağırışlara səbəb oldu. 1994-cü ilin may ayında Nümayəndələr palatası təhsisat komitəsi Türkiyəyə göstərilən yardımın miqdarını azaltmaqla qalmayıb, bu yardımın 25 faizini Türkiyənin insan haqlarına riayət etməsi şərtlərinə bağladı. 1994-cü ilin iyul ayında senatda olunan dəyişikliklər isə yardım proqramı çərçivəsi altında alınan amerikan hərbi vasitələrinin daxili təhlükəsizlik məqsədləriylə istifadəsini məhdudlaşdırdı[5].

ABŞ rəsmiləri türk hökumətini "kürdlərin insani və vətənDaşlıq haqlarını qorumamasına görə" tənqid edir, eyni zamanda Türkiyədəki kürdlərə muxtariyyət verilməsi fikrini dəstəkləmir[6].

Beləliklə, faktların və materialların dərindən öyrənilməsi sübut edir ki, bu gün qloballaşmanın gücləndiyi bir zamanda siyasi məqsədlərə çatmaq üçün açıq surətdə hərbi vasitələrdən istifadə etməyin çətinliyi bir sıra dövlətləri terrorçu təşkilatların əli ilə rəqiblərinə qarşı mübarizə aparmağa sövq edir. Rusiya (keçmiş SSRİ), Ermənistan, Suriya, Yunanıstan və bir sıra dövlətləri Yaxın Şərqdəki mənafelərini reallaşdırmaq üçün Türkiyəni daxildən zəif-

---

[1] Turan Yavuz. Göst. əsəri, s.19. ABD-yin kürd kartı // Milliyet yayınları. İstanbul, 1993, s.279.

[2] Kemal Kirişçi – Gareth M.Winrow. Kürt sorunu (kökeni ve gelişimi). Tarih vakfı yayımları. 2 baskı. Ankara, 1997, s.180.

[3] Yenə orada.

[4] Yenə orada, s.180.

[5] Yenə orada, 181.

[6] Yenə orada.

lətməyə çalışır və buna görə də ona qarşı PKK terrorunu dəstəkləyir və qızışdırırlar.

## ПОПЕЧИТЕЛИ И СТОРОННИКИ ПКК

**С.Т.ГАДЖИЕВ**

**РЕЗЮМЕ**

В статье основное внимание обращается террористической деятельности ПКК на территории Турецкой Республики и их иностранных опекунов. Исторические факты явно показывают, что Европейские государства (Армения, Германия, Голландия) всеми силами помогали наращиванию мощи курдских террористов. В этом признался и лидер организации А.Оджалан на судебном разбирательстве. Среди опекунов организации особенно выделяются Греция, Кипр, а также Сирия. Греческие власти через деловых людей обеспечивали курдских террористов даже ракетной техникой. Главной целью опекунов и попечителей курдских террористов является ослабление Турции изнутри террористическими актами для реализации своих геополитических и во многом коварных для других государств региона планов.